# Kəngərlülər

Kəngərlü varlığını keçən yüzilədək sürdürən Ustacluların biricik obasıdır. Kəngərlünün İrana gəldikdən sonrakı yurdu Naxçıvan bölgəsində olub, orada son illərə qədər yaşamışdır. Təhmasib çağında Şah Verdi Bəy, Peykər Xəlifə; Şah Məhəmməd çağında Cəfər Sultan, Allah Qulu Sultan bu obanın vurğulanası əmirlərindən idilər. Abbas çağında isə Mustafa Xan ilə Teymur Sultan, Gəda Əli Bəy və Maqsud Sultanın Kəngərlüdən olduğunu bilirik. Bunlardan Mustafa Sultan Xorasanda Təbəs valisi olub hicri 1003-də (1594-1595) Özbəklər ilə edilən bir savaşda ölmüş və yerinə eyni obadan Teymur Sultan təyin edilmişdir. Maqsud Sultana gəlincə, o, Naxçıvan valisi idi; elçilik ilə İstanbula getmişdir (hicri 1046 = 1636-1637). Girit (Krit adası) fatehlərindən Dəli Hüseyin Paşanın yüksəlməsinə nədən olan ünlü qatı yayı da IV Murada təqdim edən bu Maqsud Sultan idi. Eyni zamanda xəlifətül-xülafə olan Maqsud Sultan, hicri 1051-ci (1641-1642) ildə ikinci dəfə İstanbula göndərilmişdir. Zamanımızda Diyarbəkir vilayətində biri mərkəzə, digəri də Bismil qəzasına bağlı Kəngərlü adlı iki oba görünməsi diqqətə dəyər. Çünki, xatırlanacağı üzrə Ustaclu Məhəmməd Xan ilə qardaşı Qara Xan bu bölgədə valilik etmişdilər.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**